# Möhkəm təməl üzərində

## "Respublika" qəzetinin suallarına Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü Xoşbəxt Yusifzadə cavab verir



**–Hörmətli Xoşbəxt müəllim, Respublika Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetində keçirilən 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrin müəyyənləşdirilməsinə həsr edilmiş iclasında neft sənayesinin ölkə iqtisadiyyatında yeri və dünyada gedən bəzi çox mühüm problemlərin bu faktora təsiri məsələlərinə də yer ayrılmışdır. Məsələn, Prezidentin nitqində bildirilir ki, "... Azərbaycan neftlə zəngin olan digər ölkələr kimi, neftin qiymətinin aşağı düşməsindən əziyyət çəkirdi. Ancaq neft ixrac edən bütün ölkələrin addımlarına nəzər salsaq, görərik ki, Azərbaycan o ölkələrdəndir ki, bu böhranlı vəziyyətdən də uğurla çıxa bilmişdir..."**

**Söhbət həmin uğuru təmin edən hansı amillərdən gedir?**

–Bu il yanvarın 10-da Azərbaycan Respublikası Nazirlər Kabinetinin iclasında ölkə Prezidenti İlham Əliyevin televiziya və radio ilə yayımlanmış, respublika qəzetlərində dərc olunmuş giriş və yekun nitqləri mənə dərin təsir bağışladı. Bu nitq dünyada və regionda cərəyan edən çox mürəkkəb siyasi və iqtisadi proseslər fonunda respublikamızın əldə etdiyi nailiyyətlərin sözlə çəkilmiş, dəqiq təsvir olunmuş geniş və canlı mənzərələridir. Həmin mənzərələri seyr etdikcə, ürəyin dağa dönür, çünki sənin doğma müstəqil respublikan həyatın sınaqlarından üzüağ çıxır, gələcəyini öz vətəndaşlarının zəkası və əlləri ilə qurur. Bunu ötən ilin nəticələri də aydın göstərir. Prezident sözləri ilə desək, "Azərbaycan 2016-cı ildə öz inamlı inkişafını davam etdirmişdir, ölkəmizdə təhlükəsizlik tədbirləri davam etdirilmişdir, Azərbaycan xalqı sülh, əmin-amanlıq şəraitində yaşamışdır və yaşayır... Artıq tarix və ətrafda baş verən hadisələr göstərir ki, bizim seçdiyimiz yol yeganə düzgün yoldur. Bu, müstəqillik yoludur, sabitlik, inkişaf yoludur".

Sualınıza gəldikdə isə deyə bilərəm ki, respublikamızın uğurlarını, xüsusilə də bir sıra neft ölkələri üçün böyük itkilər və məyusluq ili olan 2016-cı ildə Azərbaycanın nailiyyətlərini təmin edən amillərin geniş və səmərəli spektri mövcuddur və cənab İlham Əliyev Nazirlər Kabinetinin iclasında onların bəzilərini qeyd etmişdir. Şübhəsiz ki, bu amillərin ən əhəmiyyətlisi qeyri-neft sektorunun inkişafı ilə bağlıdır. Prezidentimizin də vurğuladığı kimi, neftin qiymətinin aşağı düşməsi, bunun da nəticəsində dövlət investisiyalarının azalması şəraitində sənayenin qeyri-neft sektorunda istehsalın bir ildə 5 faiz, kənd təsərrüfatı istehsalının isə 2,6 faiz artması çox böyük göstəricidir. Bununla yanaşı, neft gəlirlərinin azalmasına baxmayaraq, Azərbaycanda yaradılmış əlverişli sərmayə mühiti sayəsində ötən il ölkəmizə 8 milyard dollar xarici investisiya cəlb edilmişdir. Bunun üzərinə 3,7 milyard dollar həcmində daxili investisiyanı da əlavə etsək, adambaşına düşən sərmayə qoyuluşuna görə Azərbaycanın dünyada ən qabaqcıl yerlərdən birini tutduğunu görərik.

Bütün bunlarla yanaşı, qeyd etməliyik ki, sənayenin qeyri-neft sektorunun da, kənd təsərrüfatının, digər sahələrin inkişafı və əlverişli investisiya mühiti də iqtisadiyyatın möhkəm təməl üzərində qurulmasının bəhrəsidir. Azərbaycanın bugünkü güclü iqtisadiyyatının təməli isə ümummilli liderimiz Heydər Əliyevin işləyib hazırladığı neft və qaz strategiyasının həyata keçirilməsi, ulu öndərin iradəsi və möhtərəm Prezidentimiz İlham Əliyevin səyləri ilə 1994-cü il sentyabrın 20-də Bakıda dünyanın 7 ölkəsinin 11 iri neft şirkəti ilə sonralar haqlı olaraq "Əsrin Müqaviləsi" adlandırılmış məşhur Kontraktın - "Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinsulu hissəsinin birgə işlənməsi və Hasilatın Pay Bölgüsü haqqında Saziş"in imzalanması ilə qoyulmuşdur. O vaxtdan da Azərbaycanda görülmüş böyük abadlıq-quruculuq işlərinin, dayanıqlı iqtisadiyyatın, böyük valyuta ehtiyatlarımızın əsas mənbəyi "Əsrin Müqaviləsi" olmuşdur.

**–Söhbətimizi bu maraqlı mövzu ilə davam etdirək: ölkəmizin tərəqqisində "Əsrin Müqaviləsi"nin rolu.**

–Bu müqavilə həm siyasi, həm də iqtisadi cəhətdən Azərbaycana böyük fayda verdi. Göstərdi ki, Azərbaycan müstəqil dövlət və etibarlı tərəfdaşdır, burada işləmək, bu ölkəyə sərmayə qoymaq dünyanın aparıcı dövlət və şirkətləri üçün olduqca sərfəlidir. Təsadüfi deyil ki, "Əsrin Müqaviləsi"ndən sonra xarici şirkətlərlə daha 34 saziş imzalandı. Bununla yanaşı, "Əsrin Müqaviləsi" respublikada neft hasilatının böyük həcmdə artmasına səbəb oldu. Neft hasilatı Azərbaycanın tarixində ən aşağı səviyyədən - 1997-ci ildəki 9 milyon tondan 2010-cu ildə 51 milyon tona çatdı. Başqa sözlə, 5,6 dəfə artdı.

İşlənmənin əvvəlindən bu il yanvarın 1-dək "Azəri", "Çıraq" yataqlarından və "Günəşli" yatağının dərinsulu hissəsindən 416,5 milyon ton neft və 128,2 milyard kubmetr qaz hasil edilmişdir. Hazırda həmin yataqlardan ayda 2,6 milyon ton neft və 1 milyard kubmetrdən çox qaz hasil olunur.

Artıq 18-ci ildir ki, "Azəri-Çıraq-Günəşli" layihəsinin iştirakçıları "mənfəət nefti"ndən gəlir əldə edirlər. 2017-ci il yanvar ayının 1-dək dünya bazarlarında Azərbaycanın payına düşən 231,8 milyon ton "mənfəət nefti" satılmışdır. Mənfəət neftinin həcmi ilbəil artır. 2016-cı ildə dünya bazarlarında satılmış 32,7 milyon ton neftin 19,3 milyon tonu, yəni 59 faizi Azərbaycanın payına düşən mənfəət nefti olmuşdur.

Məlum olduğu kimi, əvvəllər hasil edilən neft dünya bazarlarına Bakı-Novorossiysk və Bakı-Supsa boru kəmərləri vasitəsilə nəql olunurdu. Lakin "Əsrin Müqaviləsi"nin həyata keçirilməsinin müsbət cəhətlərindən biri də o oldu ki, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri tikilib işə salındı. Bu əsas ixrac boru kəməri Azərbaycan neftinin Avropa və dünya bazarlarına daha böyük həcmdə nəql edilməsinə imkan verdi. 2017-ci il yanvar ayının 1-dək dünya bazarlarına 435,4 milyon ton Azərbaycan nefti çıxarılmışdır ki, bunun da 321,7 milyon tonu Bakı-Tbilisi-Ceyhan kəməri ilə nəql edilmişdir.

"Əsrin Müqaviləsi" Azərbaycanı dünyaya yenidən neft ölkəsi kimi tanıtdısa, 1999-cu ilin iyununda ehtiyatları bu günə 1,2 trilyon kubmetr qazdan və 240 milyon ton kondensatdan ibarət olan nəhəng "Şahdəniz" yatağının kəşf edilməsi və "Şahdəniz" qaz layihəsinin müvəffəqiyyətlə həyata keçirilməsi Azərbaycanı dünyaya böyük miqdarda qaz ixrac edən bir ölkə kimi tanıtdırdı. Ötən il "Şahdəniz-2" layihəsi üzrə dayaq blokunun dənizə yola salınması mərasimindəki çıxışında respublika Prezidenti cənab İlham Əliyev bu barədə danışarkən dedi ki, "1996-cı ildə "Şahdəniz" layihəsi üzrə sazişin imzalanması növbəti uğurlu addım idi. Baxmayaraq ki, o vaxt dünyada və xüsusilə Avropada enerji təhlükəsizliyi haqqında heç kim danışmırdı, qaz layihələri o qədər də böyük əhəmiyyət daşımırdı. Hesab olunurdu ki, qaz layihələri o qədər də böyük gəlir gətirən layihələr deyil, müəyyən tərəddüdlər var idi. Ancaq biz əmin idik ki, Azərbaycan qaz sektorunda da öz sözünü deyəcək".

Bildiyiniz kimi, "Şahdəniz" yatağının işlənməsi iki mərhələyə bölünmüşdür - "Faza-1" və "Faza-2". "Faza-1" çərçivəsində yataq "Alfa" platformasından işlənilir. 15 quyuluq platforma yatağın şimal-şərqində, dənizin dərinliyi 100 metr olan hissədə yerləşir.

Hazırda "Şahdəniz" yatağında 8 işləyən quyudan gündə orta hesabla 29,5 milyon kubmetr qaz və 6,5 min ton kondensat hasil olunur. İşlənmənin əvvəlindən "Şahdəniz" yatağından 78,4 milyard kubmetr qaz və 19,6 milyon ton kondensat çıxarılmışdır. 2017-ci il yanvarın 1-dək "Şahdəniz-1" layihəsi üzrə Cənubi Qafqaz Boru Kəməri ilə Gürcüstana 5,9 milyard kubmetr, Türkiyəyə isə 43,8 milyard kubmetr qaz verilmişdir. Hazırda həmin kəmərlə hər gün orta hesabla Gürcüstana 4 milyon kubmetr və Türkiyəyə 18,5 milyon kubmetr qaz nəql edilir.

Nəhayət, bunu da deyim ki, 2016-cı ildə Azərbaycanda 41 milyon tondan artıq neft və 29,4 milyard kubmetr qaz hasil edilmişdir. Neftin 7,5 milyon tonunu və qazın 6,3 milyard kubmetrini SOCAR hasil etmişdir. ABƏŞ və "Şahdəniz" konsorsiumları isə ötən il 33,5 milyon ton neft və 23,1 milyard kubmetr qaz çıxarmışlar.

Ötən ilin nəticələrindən danışarkən mən dekabr ayının son günlərində baş vermiş bir hadisəni-SOCAR-ın Xəzərdə 2010-cu ildə kəşf etdiyi "Ümid" yatağında 14 nömrəli yüksək hasilatlı yeni qaz-kondensat quyusunun istismara verilməsini xüsusi qeyd etmək istəyirəm. Yatağın qaz-kondensat ehtiyatlarının mənimsənilməsi və onun şimal-şərq qanadının karbohidrogen ehtiyatlarının təsdiq edilməsi məqsədilə Məhsuldar Qatın VII horizontuna qazılmış 6352 metr dərinliyində quyuya biz böyük ümidlər bəsləyirdik. Çünki ilkin hesablamalara görə, karbohidrogen ehtiyatları 200 milyard kubmetr qaz və 40 milyon ton kondensat həcmində qiymətləndirilən "Ümid" yatağının işlənməsi çərçivəsində burada 4 özülün quraşdırılması, bu özüllərdən 19 istismar quyusunun qazılması layihəsi üzərində iş gedir. Buna görə də yeni quyudan əldə edilən məlumatların və qazmanın nəticəsinin bizim üçün böyük əhəmiyyəti var. Çox şadıq ki, yeni quyu ümidlərimizi doğrultdu. 6317-6282 metr dərinlik intervalında perforasiya işlərindən sonra quyu 12 millimetrlik ştutserlə hazırda gündə 1 milyon kubmetrə qədər qaz və 150 tona yaxın kondensat verir.

**–Prezidentin nitqində dünya bazarında neftin qiymətinin aşağı düşməsinin Azərbaycan iqtisadiyyatında yaratdığı problemlərin aradan qaldırılması istiqamətində əldə edilən uğurların daha da dərinləşdirilib möhkəmləndirilməsində "Cənub Qaz Dəhlizi" və "Şahdəniz-2" layihəsinin oynayacağı rola böyük inam ifadə edilib. Azərbaycan bu möhtəşəm layihənin lideri, təşəbbüskarı, aparıcı qüvvəsi kimi xarakterizə olunur. Bu barədə Sizin fikriniz?**

–"Şahdəniz-2" layihəsi çərçivəsində hasil olunacaq qazın uzunmüddətli sazişlər əsasında Avropa Birliyi ölkələrinə ixrac edilməsi üçün mühüm addımlar atılmışdır. "Trans-Anadolu" (TANAP) və "Trans-Adriatik" (TAP) təbii Qaz Boru kəmərləri layihələrinin reallaşdırılması üçün artıq praktiki işlər görülür ki, bunlar da yaxın illərdə 3500 kilometr uzunluğunda Cənub Qaz Dəhlizinin meydana gəlməsi ilə nəticələnəcəkdir. Beləliklə də, "Şahdəniz" qazı Cənubi Qafqaz Qaz Kəmərinin (Bakı-Tbilisi-Ərzurum) və "Trans-Anadolu" Qaz Kəmərinin (TANAP) davamı olan "Trans-Adriatik" (TAP) kəməri ilə Yunanıstan və Albaniya vasitəsilə Adriatik dənizi ilə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya nəql ediləcəkdir. Azərbaycan qazının bu kəmər vasitəsilə 2019-cu ildə Avropaya çatdırılması planlaşdırılır. İlkin mərhələdə Avropaya ildə 10 milyard kubmetr "Şahdəniz" qazının nəql edilməsi, daha sonra isə bunun iki dəfə artırılması nəzərdə tutulur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sözləri ilə desək, əgər "Əsrin Müqaviləsi" XX əsrin müqaviləsidirsə, "Şahdəniz" layihəsi XXI əsrin müqaviləsidir və Azərbaycan üçün, bütövlükdə Avropa üçün onun böyük həyati əhəmiyyəti vardır.

Bəli, Azərbaycan "Şahdəniz" və Cənub Qaz Dəhlizi kimi qlobal layihələrin təşəbbüskarı və aparıcı qüvvəsi qismində çıxış edir. Respublikamızı bu işlərdə dünyanın ən qüdrətli neft şirkətlərindən biri kimi tanınmış SOCAR təmsil edir. Bizim Dövlət Neft Şirkəti artıq ötən əsrin 90-cı illərinin şirkəti deyil. SOCAR dünyanın bir sıra ölkələrində böyük layihələr həyata keçirir və öz nüfuz dairəsini müvəffəqiyyətlə genişləndirir.

**–Dediklərinizdən belə nəticəyə gəlmək olar ki, neftimiz ölkənin inkişafında hələ uzun illər mühüm rol oynayacaq.**

–Əsrlər boyu biz neftimizlə tanınmışıq və ən çətin vaxtlarda, o cümlədən müstəqilliyimizin 25 ili ərzində neft bizim dayağımız olub. Əlbəttə, müasir dövrdə ölkənin inkişafına bəslənilən bütün ümidləri yalnız neftə, qaza bağlamaq düzgün olmazdı. Buna görə də respublika rəhbərliyinin çalışdığı odur ki, sənayenin qeyri-neft sektoru da, kənd təsərrüfatı, turizm, xidmət sahələri də daha yüksək surətlə inkişaf etsin, bunların hamısı bir-birini tamamlasın və nəticə etibarı ilə gələcəyimiz yalnız bir sahədən asılı olmasın. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin son nitqlərində ifadə olunmuş əsas vəzifə də budur.

**–Ötən il ölkədə ümumi daxili məhsulun aşağı düşməsi, haqlı olaraq, dünya bazarında neftin qiymətinin aşağı düşməsi ilə əlaqələndirilir və "digər önəmli göstəricilərin" yüksəlməsinə istinadən inam, sevinc və qətiyyətlə bildirilir ki, "iqtisadiyyat dayanıqlı şəkildə inkişaf edəcək,...biz dediyim bütün hədəflərə çatacağıq". Bütün bu uğur və inamda vaxtilə Prezident İlham Əliyevin irəli sürdüyü "Neft kapitalını insan kapitalına çevirək!" devizi nə dərəcədə rol oynayır? Nitqdə deyildiyi kimi, "Azərbaycan iqtisadiyyatının dünya miqyasında rəqabətqabiliyyətliyinə görə 3 pillə yüksəlməsi"ndə insan kapitalının, yeni düşünülmüş uzaqmənzilli strateji iqtisadi siyasətin çəkisinin kifayət qədər böyük olduğu şəksizdir.**

–Əgər Prezident deyirsə ki, biz bütün hədəflərə çatacağıq, deməli, belə də olacaq və mənim buna zərrəcə şübhəm yoxdur. Çünki cənab İlham Əliyevin zəkasına, iradəsinə və qətiyyətinə hələ ötən əsrin 90-cı illərinin əvvəllərindən bələdəm. Onun prezidentliyi dövründə - cəmi 13 il ərzində əldə olunmuş sosial-iqtisadi nailiyyətlər, ölkədəki siyasi sabitlik və əmin-amanlıq da sübut edir ki, dövlətin başçısı isə hədəfləri məharətlə müəyyənləşdirir və onlara çatmağın ən optimal yollarını dəqiq göstərir.

Neftin qiymətləri məsələsinə gəlincə, deyə bilərəm ki, bu qiymətlər dalğavarı olaraq, zaman-zaman qalxıb da, düşüb də. "Əsrin Müqaviləsi" imzalananda neftin bir bareli 13 dollar idi. Sonra qiymət 100 dolları keçdi. Bu bir eyforiya yaratdı. Sonra yenə enmə-bir barel üçün 40-50 dollar. Hesab edirəm ki, belə enmələr bizə problem yarada bilməz. Keçən il neft gəlirlərinin hətta azalması da respublikanı inkişafdan saxlaya bilmədi. Çünki iqtisadiyyatımız möhkəm təməl üzərindədir.

O ki, qaldı "neft kapitalının insan kapitalına çevrilməsinə" - bu, zəruri, lakin olduqca mürəkkəb məsələdir. Neft kapitalı belədir ki, nefti satırsan və böyük məbləğdə kapital əldə edirsən, milyardlar qazanırsan. İnsan kapitalı isə məbləğlə, manatla, dollarla ölçülmür. İnsan kapitalı başqa ölçülərlə müəyyən edilir. Neft kapitalının insan kapitalına çevrilməsi millətin zəka potensialının zənginləşməsi, müasir dövrdə mürəkkəb məsələləri uğurla həll etməyə qadir olan ağıllı, bilikli, elmli insanların-əsl intellektualların yetişdirilməsi deməkdir. Prezidentimizin qarşıya qoyduğu vəzifə də budur: Azərbaycan dünyada fasiləsiz davam edən zəka yarışında da öncül yerlərdə olmalıdır. Bizi yaxın və uzaqmənzilli hədəflərə çatdıracaq ən optimal yol da budur.

**Müsahibəni apardı:**
**Alxan BAYRAMOĞLU,**
**"Respublika".**